**Əmlakın qeydiyyatı prosesi elektron formada həyata keçirilir**

Ölkədə daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması sahəsində fəaliyyətinin təkmilləşdirilməsi, əhaliyə göstərilən xidmətlərin müasir standartlara uyğun qurulması istiqamətində görülən işlər davam etdirilir. Bu işlər çərçivəsində daşınmaz əmlaka dair hüquqların qeydiyyatı üçün qaydaların sadələşdirilməsi, tələb olunan müddətlərin azaldılması, daşınmaz əmlakın dövlət reyestrinin aparılması sahəsində yeni elektron xidmətlərin tətbiqi, ərazi qeydiyyat idarələri tərəfindən göstərilən xidmətlərin tariflərinin təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması nəzərdə tutulur.

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən həyata keçirilən bu işlərin başlıca məqsədi təqdim olunan xidmətlərdən əhalinin istifadəsini asanlaşdırmaqdır. Təsadüfi deyildir ki, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının «Doing Business-2013» hesabatına əsasən, Azərbaycan daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı sahəsində ən yaxşı vəziyyətin olduğu on ölkə arasındadır - Azərbaycan reytinqin əhatə etdiyi 183 ölkə arasında 9-cu yerdədir.

ƏMDK tərəfindən əhaliyə elektron xidmətlərdən istifadə imkanı yaradılması təqdim olunan xidmətlərdən istifadənin daha tez və vaxt itirmədən həyata keçməsi baxımından əhəmiyyətlidir. May ayından komitə tərəfindən elektron xidmətlərin göstərilməsinə başlanılıb və bu xidmətlər sayəsində hər bir vətəndaş daşınmaz əmlakını qeydiyyatdan keçirmək üçün ərazi qeydiyyat idarələrinə internet vasitəsi ilə onlayn rejimdə müraciət edə bilər. Komitədən bildirilmişdir ki, hazırda məhdudiyyət haqqında arayışların verilməsi və təkrar bazardan qayıdan əmlakların qeydiyyatı ilə bağlı müraciətlər elektron qaydada qəbul olunur. Gələcəkdə isə ipotekanın qeydiyyatı, ləğvi, hüquqların tanınması kimi proseslərin də elektron formada aparılması nəzərdə tutulub. Elektron xidmətlərin tətbiqi əmlak bazarının şəffaflığının daha da yüksəlməsinə, əmlak bazarı iştirakçılarının etibarlılığının artmasına, vətəndaşların əmlaklarını daha rahat və operativ şəkildə, əlavə vaxt itkisinə yol vermədən dövlət qeydiyyatına aldırmalarına imkan yaradır. Vətəndaşların daşınmaz əmlaklarının qeydiyyatının daha rahat və operativ qaydada aparılması məqsədilə artıq bütün yerli qeydiyyat idarələrində sənəd qəbulu həftənin bütün iş günlərində, iş gününün sonunadək həyata keçirilir. Bundan başqa, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı Şəhər Ərazi İdarəsinin bütün rayon şöbələrində, Abşeron, Sumqayıt, Gəncə və Xaçmaz ərazi idarələrində «elektron növbəlilik» sisteminin tətbiqinə başlanılıb. Həyata keçirilən tədbirlər nəticəsində vətəndaşlar, əmlak sahibləri, biznes qurumları daşınmaz əmlaklarını daha qısa müddətdə dövlət reyestrində qeydiyyata aldıra bilərlər. Belə ki, artıq ərazi qeydiyyat idarələrində əmlaklara dair arayışlar 1 gün ərzində, təkrar bazardan keçmiş əmlaklara dair reyestrdən çıxarışlar isə 7 gündən gec olmayaraq təqdim olunur. Bu müraciətlər elektron qaydada da qəbul edilir.

Daşınmaz əmlakın qeydiyyatı prosesinin sadələşdirilməsi sahəsində tədbirlərdən biri də bunun üçün dövlət rüsumları və xidmət haqlarının istənilən ödəmə məntəqəsində ödənilməsi imkanının yaradılması olacaq. Bu ödənişlər avtomatik olaraq Daşınmaz Əmlakın Milli Qeydiyyat Sistemində vətəndaşdan qəbul olunmuş ərizənin qarşısında görünəcək. Bu məqsədlə Daşınmaz Əmlakın Milli Qeydiyyat Sistemi ilə ödənişlərin aparıldığı bank arasında əlaqə yaradılması nəzərdə tutulur. Bu tədbirlərin həyata keçirilməsinin başlıca məqsədləri daşınmaz əmlak üzərində mülkiyyət hüququnun qeydiyyatının mümkün olduğu qədər sadələşdirilməsi, əhalinin və biznesin bu xidmətlərə çıxışının asanlaşdırılması, eləcə də prosesin daha şəffaf və effektiv olmasına şərait yaradılmasıdır.

AYTƏN